Azərbaycan.- 2021.- 28 aprel. S. 12.

# *Şamil AYRIM:* "Qarsda, İğdırda, Qubada günahsız türklərin uyuduğu kütləvi məzarlıqlar erməni vəhşiliyinin təzahürüdür"



"ABŞ Prezidenti Co Baydenin uydurma "erməni soyqırımı" mövzusunda fikirləri bu dövlətin demokratiya və insan haqları prinsiplərinə tam şəkildə ziddir. Anadolu coğrafiyasında 106 il əvvəl baş vermiş hadisələri təhrif edərək fərdi mülahizələrlə birtərəfli qaydada şərh etmək xoş niyyətdən xəbər vermir. Əslində, tarixdə baş verənlər böyük dövlətlərə müasir dövrün hadisələri qədər aydındır. Lakin siyasi maraqlar naminə cinayətkar bir tərəfi dəstəkləyib onun haqqında məzlum obrazı yaratmaq cəhdi qərəzli və yolverilməzdir".

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrım söyləyib. Saxta "erməni soyqırımı" ifadəsinin ABŞ dövlət başçıları arasında ilk dəfə eks-prezident Ronald Reyqan tərəfindən 1981-ci ildə işlədildiyini xatırladan Şamil Ayrım deyib ki, ötən dövrdə qeyd olunan açıqlama ermənilərə heç bir fayda gətirməyib. Əksinə, bütün dünya dövlətləri inkişaf və tərəqqi yolunda olduqları halda, təcavüzkar Ermənistan və erməni lobbisi xülyalar əsasında nağılçılıqla məşğul olub. Bu prosesdə erməni toplumunu amansızcasına istismar ediblər.

Mövzu ilə bağlı fikirlərini davam etdirən Şamil Ayrım deyib: "Seçki kampaniyasında ABŞ-dakı erməni lobbisindən maliyyə yardımı görən Co Bayden saxta "erməni soyqırımı" ifadəsi ilə onların könlünü almaq istəyir. Lakin o, unutmamalıdır ki, ABŞ-ın aparıcı siyasi partiyasını təmsil etdiyi üçün sərgilədiyi ədalətsiz mövqe ilə həmin qurumun da imicinə zərbə vurdu. Türk xalqı tarixdə çox ədalətsizliklərə məruz qalıb, lakin hər dəfə bizə qarşı olan qüvvələrin düşmənçiliyi xalqımızı mətinləşdirib və mübarizliyini artırıb".

Birinci Dünya müharibəsi çərçivəsində təpədən dırnağadək silahlanmış erməni quldur birləşmələrinin Anadoluda və Qafqazda türk-müsəlman əhaliyə qarşı törətdiyi vəhşilikləri bəşəri cinayət, ağır acı kimi dəyərləndirən Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri deyib ki, bu əsassız düşmənçiliyin yaranması və onun davamlı şəkildə qızışdırılması Türkiyəyə qarşı ədalətsizliyin bir hissəsidir. Əgər kənar təsirlər və silahlandırma olmasaydı, erməni quldurları XX əsrin əvvəllərində Anadoluda və Qafqazda türklərə və müsəlmanlara qarşı heç vaxt təkbaşına bu cinayətləri törədə bilməzdilər.

1912-1922-ci illərdə 2 milyon 500 min türk və müsəlmanın erməni silahlıları tərəfindən kütləvi şəkildə qətlə yetirildiyini xatırladan deputat vurğulayıb ki, əgər o dövrdə həqiqətən də 1,5 milyon erməni öldürülsəydi, onda gərək bu toplumun kökü kəsiləydi. Halbuki erməni dairələri iddia edirlər ki, hazırda bütün dünyada on milyona yaxın erməni mövcuddur. Əgər ermənilər kütləvi şəkildə qətlə yetiriliblərsə, həmin kütləvi məzarlıqlar və yaxud digər sübutlar haradadır? Ermənilərin iddia etdiyinin tam əksinə olaraq, hazırda Qarsda, İğdırda, Qubada və digər yerlərdə günahsız türklərin uyuduğu kütləvi məzarlıqlar var. Onların hər biri erməni vəhşiliyinin nümunəsidir.

Təkcə 1918-ci ildə indiki Ermənistandan 600 mindən çox Azərbaycan türkü qanunsuz olaraq silah gücünə yurdundan qovulub. Onlardan ən azı 50 min nəfəri ermənilərin vəhşi işgəncələri ilə öldürülüb. 1992-ci ildə Xocalı soyqırımının törədilməsi müasir dünyanın gözü qarşısında Azərbaycan xalqına qarşı soyqırımıdır. Azərbaycan torpaqlarının 20 faizini 30 il işğal altında saxlayan təcavüzkar Ermənistan həmin bölgəni tar-mar edib. Bütün bunların bir adı var: ermənilərin törətdiyi soyqırımı və vandalizm!